Kaspi.-2016.-26-28 noyabr.-S.23.



ŞƏFAQƏT

## SON

Alışan şam kimi sönür ümidim,
Daha qovuşmağa inam da yoxdur.
Mümkünsüz arzuya dönür ümidim,
Daha görüşməyə güman da yoxdur.

Görəsən kim, kimi itirdi axı,
Mən səndə qalmışam sən isə məndə.
Bu eşqi kim sona yetirdi axı,
Sən məndə günah gör, mən isə səndə.

Gözümdə başqa bir adam gizlənib,
Mən özgə gözlərə baxa bilmirəm.
Ətrin bu şəhəri bürüyüb gedir,
Daha küçəyə də çıxa bilmirəm.

Mən ki, mən deyiləm bir quru daşam,
Yoxdur hərarəti buz əllərimin.
Yandır şəkilləri, yandır bu axşam,
İsin istisində şəkillərimin.

Yığıb sevgi adlı çamadanımı,
Başqa bir ürəyə köçüb gedirəm.
Sənin ürəyində qonaqlar kimi,
Sonuncu qəhvəmi içib gedirəm.

* * *

Ümidimin ətəyindən yapışmışam iki əlli,
Gözlərimdə yuxu yoxdur, gecələri yuxusuzam.
Gəncliyim də əllərimdən yavaş-yavaş axıb gedir.
Qurumuş çiçəklər kimi, təravətsiz qoxusuzam.

Gecə göyə baş qaldırsam ay gizlənir, ulduz itir,
Qara bəxtdən pay düşübdür, gözlərimin qarasına.
Dostlarım da düşmən olur dərdimi sirr saxlayıram,
Üz tutum xoşbəxtlik üçün bu dünyanın harasına?

Qəmim dərya, sevincim göl, xəyallarım param-parça,
Yaşamaq sevgisi belə içimdə dəfn olub daha.
Gedən günlərdən yalnızca acı xatirələr qalıb.
Arzularım da boylanmır gələn günlərə, sabaha.

Bir şaxta var daxilimdə, çölüm yaydı, içim qışdır,
Günəşimin şəfəqləri gözlərimə nur çiləmir.
Sevinc hər qapını döyür, hər ürəyi şadlandırır,
Mənim bu qəmli daxmamı bircə dəfə yad eləmir.

Yaşım çoxdur saçımda dən nə faydası nəyə yarar,
Doğulandan, göz açandan bu dünyaya yad kimiyəm.
Doğmalığın əsirgəyib həyat ögey anam olub,
Əsrlər öncə qoyulan unudulmuş ad kimiyəm.

## QIRIŞLARIM

İçimdəki dərdlərimdir üzümdəki qırışlarım,
Bir simada neçə qırış, neçə xətt var.
Saç ağarıb, üz qırışıb, sərtləşibdir baxışlarım,
Qırışlardan üzümüzdə ölkələrtək min sərhəd var.

Yanaqdakı qırışları göz yaşlarım yuyacaqdır,
Amma olmaz, ağlamaqdan çox qorxuram, kimsə duyar.
Alnımdakı dağ-dərələr günü-gündən artır mənim,
Alnımdakı qırışları bəlkə alın tərim yuyar.

Axı niyə utanıram üzümdəki qırışlardan?!
Üzümdəki qırışlarım bir şərəfdir, bir vüqardır.
Silinməsin yaşlandıqca qoy çoxalsın qırışlarım,
Qırışlarım bu dünyadan o dünyaya yadigardır...

## YOLLAR

Kədər geyib əyninə, yollar yaman dərd çəkir
Bəlkə də bu yollarda gəzənlərin dərdidir.
Hər insanın kədəri yüklənir yollar üstə,
Yolları asta-asta süzənlərin dərdidir.

Biz büdrəyib qalxırıq, yollar eniş yoxuşlu,
Təzə asfaltlı yollar bəxtimiz kimi qara.
Fikirli, düşüncəli səssiz-səssiz gedirik,
Hara getmək istərik, yollar aparır hara...

Bəzən yolların üstə kölgə salır ağaclar,
Bəzən qızmar günəşdən yollar alışıb yanır.
İki küsülü gəzir yan-yana yollar üstə,
O həsrətli izlərlə küsüb, barışıb yanır.

Gör necə yola saldıq bu yollarda ayları,
Həm istiylə vuruşduq, həm də rast gəldi ayaz.
Bitməz yazsam yollardan şeir ömür üzünü,
Çünki yollar uzundu, ömür qısa, ömür az.

## DÖNÜR

Allah bu nə zamandır
Lağ eləyir tox aca.
Ağaclar insanlaşır
İnsan dönür ağaca.

Baxıb bu zəmanəyə
Yaşaya bilsən yaşa.
Daşdan ürək oyuruq.
Ürəklər dönür daşa.

Gör bir nə qəribədir
Bu işlər gedir hara?
Qardan adam düzəlir
Adamlar dönür qara.

## NİYƏ GEC GƏLMİSƏN HƏYATIMA SƏN

Niyə gecikmisən həyatıma sən,
Məclisə gec gələn qonaqlar kimi?
Elə ağlayırsan, elə üzgünsən
Oyuncağı sınmış uşaqlar kimi.

Gözlərin gizlənir baxışlarımdan,
Gözlərdə min həsrət, min kədər yatır.
Bəlkə bu son görüş olacaq bu gün
Bir sevgi məhəbbət gəmisi batır.

Mən elə baxıram qəmli gözlərə,
Birdən itib batar, yox olar kimi.
Mənim toy günümdə, ağ gəlinliyim
Görsənir qorxulu yuxular kimi.

Hamı deyib gülür, hamı şadlanır.
Qorxuruq ağlayaq, çıxar aşkara.
Üzünə baxdıqca qəlbim odlanır,
Mənim bəxt taleyim qaraymış qara.

Mən səssiz bir dəniz, sən böyük ada,
Arzular, istəklər gözümdə qalır.
Artıq məclis bitir, indi tamada
Xoşbəxt ol söyləyir, vağzalı çalır.